Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Suverenlik, bütövlüyün bərpası və dövlətçilik - azərbaycançılıq ideologiyasının təntənəsi...

**Çağdaş Azərbaycan tarixində elə hadisələr var ki, onlar bizim qan yaddaşımızdır və gələcək nəsillər o hadisələr barədə ətraflı məlumata malik olmalıdır. 30 ilə yaxın bir dövr ərzində torpaqlarımızın 20 faizdən artığı Ermənistanın işğalı altında olub, ermənilər işğal dövründə abidələrimizi dağıdıb, mədəni irsimizi, təbiətimizi məhv edib, urbadid, ekosid, kultrasid töprədib, insanlarımızı kütləvi şəkildə qırıb, əsir və girov götürüblər. Bir sözlə, 30 il torpaqlarımız yağı işğalında qalıb.**

44 günlük Vətən müharibəsində rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad etdi və artıq üç ildir ki, Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən dirçəlməyə başlayıb.

Ermənistanın işğal dövründə həyata keçirdiyi vandalizmi, ağır müharibə cinayətlərini, erməni terrorizmini canlı şəkildə tarixin yaddaşında saxlamaq, bütün dünyaya çatdırmaq və dünya azərbaycanlılarının yaddaşına həkk etmək üçün işlər görülür. O cümlədən də müzəffər ordumuzun şücaətini ifadə etmək üçün addımlar atılır.

### Zəfər və İşğal muzeylərinin yaradılması

Azərbaycan dövləti işğal tarixini də, Zəfər salnaməmizi də yaddaşlara yazmaq üçün ardıcıl siyasət həyata keçirir. Qələbədən sonra azad ərazilərimizdə müasir standartlara uyğun olan muzeylərin yaradılması zərurətə çevirilmişdi. Bildiyimiz kimi, Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzey kompleksləri yaradılır. Artıq bir neçə rayonda bu muzeylər yaradılıb, bəziləri yaradılmaqdadır. Bildiyimiz kimi, Ağdamda, Laçında, Zəngilanda, Kəlbəcərdə və başqa rayonlarda bu işlər görülür. Belə muzey komplekslərindən biri də Laçında yaradılır. Mayın 28-də Prezident İlham Əliyevin Laçına səfəri çərçivəsində Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirakı fikirlərimizi təsiqləyir. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Qarabağ ərazilərində Zəfər və İşğal muzeylərinin yaradılması təklifi açıq səma altında muzeylərin yeni forması kimi 2021-ci il mayın 28-də Ağdamda öz real həllini tapdı. Bu kompleks müasir üslubda dizayn edilmiş muzey binası, xatirə gölü, memorial bağ və dağıntılardan ibarət olacaq. Ağdam Zəfər muzeyi kompleksi 5 hektara yaxın ərazini əhatə edəcək və bu bölmə müasir dizayna malik bina, Bayraq meydanı və Zəfər arenası hissələrindən ibarət olacaq.

Ekspertlər qeyd edir ki, bu muzeylər Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirəcək mərkəzə çevriləcəkdir.

### Azərbaycançılığın əsasında dünya azərbaycanlılarının həmrəyliyi və vahid amal uğrunda sıx birləşməsi dayanır

Ekspertlər qeyd edir ki, Zəfər və İşğal muzeyləri xalqımızın müasir tarixinin öyrənilməsi üçün canlı vəsait rolunu oynamaqdadır. Bu muzeylərin yaradılmasında azərbaycançılıq elementlərinin xüsusi yer tutduğunu deyən ekspertlər bildirir ki, Zəfər muzeyi ordumuzun, xalqımızın qəhrəmanlığımızın təcəssümüdür. Azərbaycan xalqının qəhrəmanlığı, ordu-xalq birliyi, Ali Baş Komandanın dəmir yumruğu və dəmir iradəsi qələbənin simvoluna çevrildi. Bu gün Azərbaycanın zəfərini böyük qürur hissi ilə təbliğ və tərənnüm edən xalqımız bu muzeylərdə son 30 ilin reallıqlarını həm də dünya xaqları ilə bölüşəcək.



### Xalqımızın zəngin dövlətçilik ənənələrinin möhkəmləndirilməsində vahid milli məfkurə olan azərbaycançılıq ideologiyasının müstəsna rolu var

Məlum olduğu kimi, hər bir xalqın tarixdə öz layiqli yerini tutmasında və malik olduğu ənənələri, dəyərləri qoruyub saxlamasında, zənginləşdirməsində milli ideologiyanın mühüm rolu və payı var. Bu baxımdan, çoxəsrlik dövlətçilik tarixinə malik və zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı olan Azərbaycan xalqı istisna deyil. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, azərbaycançılıq milli dövlət ideologiyası kimi Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, ölkəmizin müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən mütərəqqi dəyərlər sistemidir. Azərbaycançılığın əsasında dünya azərbaycanlılarının həmrəyliyi və vahid amal uğrunda sıx birləşməsi dayanır. Təbii ki, zaman-zaman azərbaycançılıq ideologiyası haqqında konseptual fikirlər irəli sürülüb, məqalələr yazılıb, araşdırmalar aparılıb. Bütün bunların fonunda Azərbaycanın dövlət müstəqilliyini qazandığı, müasir dünya ilə çoxşaxəli əlaqələrini qurub inkişaf etdirdiyi dövrdə azərbaycançılıq ideologiyasının mədəni, sosioloji və politoloji aspektləri diqqəti daha çox cəlb edir.

### Bu ideologiyadan doğan müsbət təzahürü biz...

İstisnasız demək olar ki, azərbaycançılığın ən mühüm amillərindən biri vətənə, torpağa bağlılıqdır. Azərbaycançılıq deyəndə onun bir üzündə vətənpərvərlik, milli birlik, digər üzündə isə milli şüur və əqidə bütövlüyü dayanır. Bunlar azərbaycançılığın əsas komponentlərindən sayılır. Mütəxəssislər qeyd edirlər ki, hər hansı bir sosial sistemdə ideya konkret olmayanda müəyyən fəsadlara gətirib çıxarır. Ona görə də inkişaf üçün hökmən ideyanın aydın olması vacibdir. Bu səbəbdən bütün məqamlar nəzərə alınmaqla, qeyd etdiyimiz kimi, azərbaycançılıq müfəssəl şəkildə təbliğ olunmalıdır. Biz bu ideologiyadan doğan müsbət təzahürü ərazilərimizin işğaldan azad edilməsində, suverenliyimizin bərpasında aydın şəkildə gördük.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**